Partnership for Good Governance

COUNCIL OF EUROPE

EUROPEAN UNION CONSEIL DE L'EUROPE

# Avropa İttifaqı/Avropa Şurası Yaxşı İdarəçilik naminə Tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycanda həyata keçirilən layihələrin nəticələri[1]

## Yaxşı İdarəçilik naminə Tərəfdaşlıq nədir?

2014-cü ilin aprelində Avropa İttifaqı və Avropa Şurası Aİ-nin Şərq Tərəfdaşlığı proqramına daxil olan ölkələri insan haqları, demokratiya və qanunun aliliyi kimi sahələrdə Avropa standatlarına daha da yaxınlaşdırmaq üçün həmin ölkələrlə məqsədyönlü əməkdaşlıq tədbirlərinin həyata keçirilməsinə dair razılığa gəlib. Yaxşı İdarəçilik naminə Tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən layihələr əsasən Avropa İttifaqı tərəfindən maliyyələşdirilir, Avropa Şurası tərəfindən isə birgə maliyyələşdirilərək icra olunur.

14 regional layihədən əlavə, **Azərbaycan üçün ümumi büdcəsi 5.2 milyon avro olan dörd spesifik layihə** nəzərdə tutulub.

## Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Haqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi

Layihə 1 yanvar 2015-ci il - 31 dekabr 2018-ci il tarixləri arasındakı müddəti əhatə edir. Büdcəsi 1.75 milyon avro təşkil edir.

- ► Sahə qiymətləndirməsi nəticəsində Ədliyyə Akademiyasında hakimlərin və vəkillərin təlimi prosesinin təkmilləşdirilməsi məqsədi ilə təlim ehtiyacları müəyyən edilib, yanaşmalar dəyişdirilib və Akademiyaya insan haqları sahəsində davamlı təhsil üzrə yol xəritəsi təqdim olunub;
- ► "Təlimçilərin təlimi" proqramı nəticəsində Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) ilə bağlı praktiki təlim keçə biləcək 38 nəfər təlimçidən ibarət baza yaradılıb. Milli təlimçilər Azərbaycanın

---

[1] Daha əvvəl Avropa Şurası/Avropa İttifaqının Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarusiya üzrə Proqramlı Əməkdaşlıq Çərçivəsi kimi tanınmışdır

Ədliyyə Akademiyası tərəfindən həyata keçiriləcək ixtisasartırma və davamlı təhsil proqramlarına cəlb edilmək üçün daim əlçatan, səriştəli və daimi bir təlimçi bazasını təşkil edir.

- 2018-ci ilin oktyabr ayına olan məlumata əsasən, bütün ölkə üzrə müxtəlif məhkəmələri təmsil edən 375 nəfər hakim, 815 nəfər vəkil, 74 nəfər prokuror və müstəntiq, 25 nəfər hakim köməkçisi və məhkəmə katibi və 230 nəfər hüquqşünas və insan hüquqları müdafiəçisi iki günlük təlim ərzində insan haqları üzrə Avropa standartları sahəsində təlim keçib;
- 2018-ci ilin fevral ayında Bakıda AİHK-in milli səviyyədə icrası ilə bağlı açıq müzakirələrin təmin edilməsi məqsədi ilə dövlət orqanlarının nümayəndələri, vəkillər, hakimlər, prokurorlar və insan haqları müdafiəçiləri üçün konfrans təşkil olunub.
- Hüquq mütəxəssislərini HELP təlim metodologiyası ilə tanış etmək və onları milli təlim institutları üçün tam olaraq HELP təlimçisi qismində hazırlamaq məqsədi ilə Hüquq Mütəxəssisləri üçün İnsan Hüquqları Təhsili Proqramı (HELP) üzrə iki "Təlimçilərin Təlimi" təşkil olunub. AİHK-nin 5-ci Maddəsi üzrə HELP kursunun dəqiq versiyası yekunlaşdırılıb;
- Ədliyyə Akademiyasında hakim seçimi prosesinin hazırlıq mərhələsini keçən 125 nəfərdən ibarət bir qrup hakimliyə namizəd Avropa Şurasının və AİHK-nin fəaliyyəti ilə bağlı məlumat əldə etmək üçün 2017-ci ildə Strasburqda təlim səfərində iştirak edib.
- 2018-ci ilin sentyabr ayında Ali Məhkəmə, Konstitutsiya Məhkəməsi və Bakı Appelyasiya Məhkəməsindən birlikdə 80 nəfərin, əsasən hakimlər və məhkəmə işçilərinin iştirakı ilə mülkiyyət hüququ ilə bağlı konfrans təşkil olunub. Konfransın məqsədi Avropa İnsan Haqları Məhkəməsinin presedent hüququ ilə müəyyən edilmiş qaydada mülkiyyət hüququnun nəzəri və praktiki təsirlərinin araşdırılmasına və milli praktika ilə bağlı mühüm məsələlərin müzakirəsinə yönəlib;
- 40 nəfər vəkil "Avropa İnsan Hüquqları Konvensiyasına Giriş" üzrə üç aylıq distant HELP kursunu uğurla başa vurub;
- Ədliyyə Akademiyası tərəfindən hüquq mütəxəssisləri üçün nəzərdə tutulmuş ilkin hazırlıq və ixtisasartırma kursları üçün əsas resurs rolu oynayacaq insan haqları üzrə kurrikulum işlənib hazırlanıb.
- Layihə çərçivəsində Azərbaycanın Ədliyyə Akademiyasının hüquq klinikasında pulsuz hüquqi yardım proqramı yaradılıb. Hüquq fakültəsinin seçilmiş 31 tələbəsi 15 təcrübəli vəkilin rəhbərliyi altında əhaliyə pulsuz hüquqi yardım göstərməkdədirlər;
- Avropa Şurası və AİHK tərəfindən hazırlanmış doqquz ədəd təlimat və bələdçi vəsait azərbaycan dilinə tərcümə olunaraq 3000 nüsxədə çap olunub. Hüquq Mütəxəssisləri üçün İnsan Haqları üzrə Təlim Metodologiyasına dair HELP Təlimat Kitabçası azərbaycan dilinə tərcümə olunub. Ədliyyə Akademiyasının kitabxanasını zənginləşdirmək məqsədi ilə AİHK-ə dair 20-dən çox seçmə kitab alınıb. Azərbaycanda hüquq mütəxəssisləri arasında paylanılması məqsədi ilə "Avropa İnsan Hüquqları Konvensiyası Qanunu" 400 ədəd nüsxədə (rus dilində) çap olunub.

Bu layihə üzrə məlumat vərəqəsinə keçid

## Azərbaycan Respublikasında ədliyyə xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması

Layihə 2015-ci il aprel - 2017-ci ilin 31 mart tarixlərini əhatə edir.

- Bakıda və Azərbaycanın regionlarında yerləşən beş pilot məhkəmədə ədliyyə xidmətlərinin səmərəliliyi və keyfiyyəti, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən məhkəmənin iş vaxtının bölgüsünə və ədalət mühakiməsinin keyfiyyəti ilə bağlı hazırlanmış metodologiya və alətlərin tətbiqi yolu ilə artırılmışdır.
- Layihə tərəfindən hakimlər üçün təlim qurumu qismində Ədliyyə Akademiyasının ehtiyacları müəyyən edilib: Akademiya tərəfindən hakimlərin ilkin və davamlı təlimi ilə birbaşa bağlı olan institusional inkişaf və idarəetmə, kadrlar, təşkilati məsələlər, büdcə, kurikulum və infrastruktur.
- Bu ehtiyacların qiymətləndirilməsi əsasında Ədliyyə Akademiyasının seçilmiş 4 təlimçisindən ibarət qrup 100 nəfər həmkarına məhkəmələrin səmərəli idarə edilməsi və ədalət mühakiməsinin keyfiyyəti üzrə kurslar keçmək üçün hazırlıq keçmişdir. Ədliyyə Akademiyasının təlim potensialını daha da gücləndirmək məqsədi ilə 14 nəfər təlimçi təlim dövrəsinin idarə olunması və böyüklər üçün təlim metodları sahəsində təlim keçib.
- Səmərəli idarəetmə texnikaları ilə tanış olmaları məqsədi ilə Ədliyyə Akademiyasının və digər ədliyyə orqanlarının nümayəndələri üçün idarəetmə və təşkilati inkişaf mövzusunda iki təlim sessiyası keçirilib.
- Ədliyyə Akademiyasının və digər ədliyyə qurumlarının əməkdaşları hakimlər və prokurorlar üçün bələdçi vəsaitlərin yazılması üzrə praktiki yanaşmalar barədə məlumatlandırılıb.
- Üç pilot Regional Ədliyyə İdarələrinin (Şəki, Şirvan və Gəncə) nümayəndələrinin iştirakı ilə baş tutan dəyirmi masa və Ədliyyə Nazirliyi ilə aparılan müzakirələrin nəticəsi olaraq 2017-ci ildə müasir hüquqi maarifləndirmə alətləri mövzusunda təşkil olunmuş təlim zamanı ölkə üzrə regional ədliyyə idarələrinin fəaliyyət səmərəliliyinin artırılması məqsədi ilə fəaliyyət planı razılaşdırılıb.

Bu layihə üzrə məlumat vərəqəsinə keçid

## Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin gücləndirilməsi

Layihə 1 yanvar - 31 dekabr 2018-ci il tarixlərini əhatə edir.

- İxtisaslaşmış prokurorluq orqanları və hüquq-mühafizə orqanlarının 40 nəfər nümayəndəsi, eləcə də hakimlər çirkli pulların yuyulması sahəsində istintaq metodları ilə bağlı təlimə cəlb olunub. Müvafiq təlim materialları işlənib hazırlanıb;
- İxtisaslaşmış prokurorluq orqanları və hüquq-mühafizə orqanlarınn 30 nəfər nümayəndəsi, eləcə də hakimlər qabaqcıl təcrübə əsasında terrorçuluğun maliyyələşdirilməsi kimi işlərə baxılması sahəsində təlimlərə cəlb olunub;
- Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində istintaq metodları ilə bağlı təlim dəsti hazırlanaraq benefisiarlara təqdim olunub;
- İxtisaslaşmış prokurorluq və istintaq orqanların, eləcə də hakimlərin çirkli pulların yuyulması ilə bağlı işlərə baxılması və həll edilməsi sahəsində potensialı artırılıb. Müvafiq təlim materialları işlənib hazırlanıb;
- Moneyval və FATF tövsiyələrinə uyğun olaraq Azərbaycan Qanuvericiliyində “Uyğun və Düzgün” Standartlarının Tətbiqinə dair hüquqi təhlil aparılıb;

- Əsas maliyyə nəzarəti orqanları və kommersiya banklarının qiymətləndirilməsi məqsədi ilə baş tutan missiyanın nəticəsi olaraq bank sektorunda risklərin qiymətləndirilməsinin həyata keçirilməsi üzrə təlimat sənədi hazırlanıb;
- Risk əsaslı prosedurların səmərəli tətbiqi məqsədi ilə maliyyə qurumları üçün konkret sektorlar üzrə təlimatlar hazırlanıb;
- Müvafiq GRECO tövsiyələri ilə uyğunluğun təmin edilməsi məqsədi ilə "Azərbaycan Respublikası Milli Məclisi deputatının Etik Davranış Qaydaları" haqqında yeni qanun layihəsi ilə bağlı hüquqi rəy işlənib hazırlanıb;
- Hədiyyələrin qəbul edilməsi, maraqların toqquşması və üçüncü tərəflərlə əlaqə kimi halların baş verdiyi situasiyalarla bağlı praktiki tövsiyələrin verilməsi məqsədi ilə millət vəkilləri üçün təlimat sənədi hazırlanıb.

Bu layihə üzrə məlumat vərəqəsinə keçid

## İfadə azadlığı və mətbuat azadlığı

Layihə 2015-ci il yanvarın 1-dən 2017-ci il dekabrın 31-ə qədər davam edib.

- 300-ə yaxın jurnalist və media işçisi seçkilərin mətbuatda işıqlandırılması, jurnalistlərin təhlükəsizliyi, məlumata çıxış, gender bərabərliyi və media, ifadə azadlığı və məxfilik, internet və insan haqları ilə bağlı Avropa Şurası standartları və müvafiq yerli qanunvericilik müddəaları sahəsində təlimlərə cəlb olunub;
- 100-ə yaxı hüquqşünas (hakimlər, vəkillər, prokurorlar) ifadə azadlığı və mətbuat azadlığı sahəsində Avropa Şurasının standartları ilə bağlı təlim keçib;
- Dövlət orqanlarının mətbuat xidmətlərinin və Ombudsman Aparatının 30-a yaxın əməkdaşı Məlumata Çıxış sahəsində mövcud Avropa Şurası standartları ilə bağlı təlimdə iştirak edib.
- 1 mart 2016-cı il tarixində Bakıda İnternet və İnsan Haqları mövzusunda keçirilən konfrans zamanı dövlət orqanları, mətbuat, elmi dairələr və vətəndaş cəmiyyətini təmsil edən 70 nəfər nümayəndə Avropa Şurasının internetdə insan haqlarının qorunması, internet infrastrukturu və onlayn media sahəsindəki standartları barədə məlumatlandırılıb;
- 31 may 2016-cı ildə Bakıda defamasiya mövzusunda keçirilən dəyirmi masa zamanı dövlət orqanları, mətbuat, elmi dairələr və vətəndaş cəmiyyətini təmsil edən 60 nəfər nümayəndə defamasiya məsələləri və ifadə azadlığı sahəsində Avropa Şurasının standartları və ən qabaqcıl Avropa təcrübəsi ilə bağlı məlumatlandırılıb.
- 11-12 may 2016-cı il və 22-24 mart 2017-ci tarixlərində 25 nəfər azərbaycanlı jurnalist Strasburqda təlim səfərində iştirak edib və ifadə azadlığı və mətbuat azadlığı sahəsində Avropa Şurası və AİHK tərəfindən görülən işlərlə tanış olub;
- "Jurnalistika etikası" və "Mətbuat və ifadə azadlığı" sahələrində kurikulumlar hazırlanaraq Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində istifadə olunub;
- İnternet İstifadəçiləri üçün İnsan Haqlarına dair Təlimat və Avropa İnsan Hüquqları Konvensiyasın 10-cu Maddəsinə dair Təlimat tərcümə olunaraq çap olunub;
- Layihə çərçivəsində Televiziya Jurnalistikası, Foto Jurnalistika, Radio Jurnalistikası və Yeni Media Jurnalistikası kimi sahələrdə dörd dərs vəsaiti dərc olunaraq iki universitetinin jurnalistika fakültəsinin tələbələrinə təqdim olunub.

Bu layihə üzrə məlumat vərəqəsinə keçid

**Daha ətraflı məlumat üçün** http://partnership-governance-eu.coe.int
**Əlaqələndirici şəxs:** Nichola Howson, Mətbuat katibi, +33 3 88 41 22 39

**Oktyabr, 2018-ci il**